E-1509

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər – N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən iddiaçı "Alltech, Inc." kompaniyasının /ünvan: 3031 Catnip Hill Road Nicholasville, KY 40356 U.S.A / nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin,

qarşı tərəf "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ (TR)" */ünvan: Turan Mahallesi, Pafta 32 IL.D, Ada 1293 Parsel 3. Tire Organize Sanayi Bölgesi, İzmir, Turkey)/* nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

27.09.2017 il tarixdə "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" şirkətinə məxsus olan **"altech"** adlı əmtəə nişanının 05-ci və 10-cu siniflərin əmtəələri üzrə 848445 saylı qeydiyyatına qarşı "Alltech, Inc." kompaniyasının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, aşağıda göstərilmiş beynəlxalq əmtəə nişanı Nişanların Beynəlxalq Qeydiyyatı üzrə Madrid Sazişinə əlavə Protokola uyğun olaraq Azərbaycanda qeydiyyata alınmışdır və qüvvədədir:

- Əmtəə nişanının adı və təsviri: "**altech**®";
- Beynəlxalq Büroda Qeydiyyat tarixi: 25.11.2004;

- Əmtəə Nişanının əhatə etdiyi siniflər və əmtəələrin/xidmətlərin siyahısı:

- 05- "əczacılıq və baytarlıq preparatları; istifadəsi tibbi məqsədlər üçün nəzərdə tutulmuş məqsədlər, körpə qidası; plastırlar; sarğı materialları; dişlər plomblamaq üçün materiallar, diş surətlərinin hazırlanması üçün mum; dezinfeksiyaedici vasitələr; ziyanverici heyvanların məhv edilməsi üçün preparatlar; funqusidlər, herbisidlər "

10 - "cərrahiyyə, tibbi, stomatoloji və baytarlıq aparatları və alətləri, ətraf protezləri, göz və diş protezləri; ortopedik məmulatlar; tikiş qoymaq üçün materiallar ";

- əmtəə nişanı sahibinin adı və ünvanı: "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR), */ünvanı - Turan Mahallesi, Pafta 32 IL.D, Ada 1293 Parsel 3. Tire Organize Sanayi Bölgesi, İzmir, Turkey/;*

- əmtəə nişanının qeydiyyatının qüvvədə olma müddətinin bitməsi tarixi: 25.11.2024

İddiaçı: "Alltech, Inc." kompaniyasına məlum olmuşdur ki, 848445 No-li **"altech"** beynəlxalq əmtəə nişanı, Azərbaycanda qeydiyyata alındığı tarixdən fasiləsiz olaraq 5 il ərzində Azərbaycan ərazisində nə nişan sahibi tərəfindən, nə də qanunvericiliyə uyğun olaraq istifadə hüququ əldə etmiş şəxslər tərəfindən istifadə edilməyib. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində deyilir ki, "Əmtəə nişanının qeydə alındığı tarixdən fasiləsiz olaraq 5 il və ya istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində istifadə olunmadıqda müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası qeydiyyata xitam verə bilər. Əmtəə nişanından istifadə halının sübutu əmtəə nişanı sahibinin üzərinə düşür". Bununla bağlı, iddiaçı "Alltech, Inc." Kompaniyası göstərilən Qanunun 30-cu maddəsini rəhbər tutaraq Azərbaycanda qeydiyyata alınmış və qüvvədə olan 848445 No-li **"altech"** beynəlxalq əmtəə nişanını, onu 05-ci sinifdə əhatə etdiyi *"əczacılıq və baytarlıq preparatları; istifadəsi tibbi məqsədlər üçün nəzərdə tutulmuş məqsədlər, körpə qidası; plastırlar; sarğı materialları; dişlər plomblamaq üçün materiallar, diş surətlərinin hazırlanması üçün mum; dezinfeksiyaedici vasitələr; ziyanverici heyvanların məhv edilməsi üçün preparatlar; funqusidlər, herbisidlər "* və 10-cu sinifdə əhatə etdiyi *"cərrahiyyə, tibbi, stomatoloji və baytarlıq aparatları və alətləri, ətraf protezləri, göz və diş protezləri; ortopedik məmulatlar; tikiş qoymaq üçün materiallar "* bütün əmtəələr üzrə qeydiyyatına vaxtından əvvəl xitam verilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı qarşı tərəfin nümayəndəsi, patent müvəkkili T.A.Yaqubova bildirmişdir ki, "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" tərəfindən **"altech"** əmtəə nişanı 10-cu sinif əmtəələri üzrə Azərbaycan Respublikasında istifadə edilmişdir və bununla bağlı sübutlar təqdim edilmişdir. Göstərilənləri nəzərə alaraq etiraz ərizəsinin qismən təmin edilməsini xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən iddiaçının nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin və qarşı tərəfin nümayəndəsi, patent müvəkkili T.A.Yaqubovanın çıxışlarını dinləyib, hesab edir ki, etiraz qismən təmin olunmalıdır.

Apellyasiya şurası etirazla tanış olduqdan sonra ona aid 170116201313 saylı 05.10.2017 il tarixli məktubu "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" şirkətinin ünvanına göndərmişdir. Məktub "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" şirkətinə çatdırılmışdır.

Apellyasiya şurası müəyyən etdi ki, **"altech"** adlı əmtəə nişanı 05 və 10-cu sinifin əmtəələri üzrə 848445 nömrəsi altında 25.11.2004 il tarixdə "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) adına beynəlxalq qeydiyyata alınmışdır. Həmin əmtəə nişanının qeydiyyatı 26.03.2009 il tarixdə Azərbaycan Respublikası ərazisinə şamil edilmişdir (2009/10 Gaz).

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində qeyd edilmişdir ki, "Əmtəə nişanından istifadə halının sübutu əmtəə nişanının sahibinin üzərinə düşür".

Apellyasiya şurasında etiraz ərizəsinə baxılan zaman qarşı tərəfin nümayəndəsi, patent müvəkkili T.A.Yaqubova tərəfindən "altech" adlı əmtəə nişanının 10-cu sinifin əmtəələri üzrə

Azərbaycan Respublikası ərazisində istifadə edilməsini təsdiqləyən 39850 (25.05.2016 tarixli), 39851(05.10.2016 tarixli), 39852 (22.02.2017 tarixli), 39853 (28.03.2016 tarixli), 39854 (15.10.2015 tarixli) saylı hesab-fakturalar təqdim edilmişdir. Həmin fakturalarda qeyd edilmişdir ki, "DİSERA TIBBİ MALAEME LOJİSTİK SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) şirkəti məhsulları (fakturanın siyahısında açıqlama verilmişdir) Azərbaycan Respublikasına çatdıran şəxs kimi "Avromed compamy" MMC */ünvanı- Nizami Abdullayev küç.. 4/47 Bakı, Azərbaycan, AZ1021/* göstərilmişdir. Eyni zamanda 23.01.2018 il tarixli 01130 nömrəli notarial şəkilində təsdiq edilmiş bəyənnamə Apellyasiya şurasına təqdim edilmişdir. Həmin bəyənnamədə göstərilmişdir ki, "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) və "DİSERA TIBBİ MALAEME LOJİSTİK SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) şerkətlərin arasında bağlanmış müqaviləyə əsasən "DİSERA TIBBİ MALAEME LOJİSTİK SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) şirkəti "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" (TR) tərəfindən istehsal edilmiş məhsullarını ("ALTECH" əmtəə nişanı altında) Azərbaycan Respublikasına və digər ölkələrə yayımlanmasına səlahiyyət vermişdir.

Apellyasiya şurası müəyyən etdi ki, təqdim olunan sübutlar "altech" adlı əmtəə nişanının 10-cu sinifin əmtəələri üzrə Azərbaycan Respublikası ərazisində istifadə edilməsini sübut edir.

Etiraz ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində "altech" adlı əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə istifadə olunması ilə bağlı sübutlar "ALTERA TIBBİ MALZEME SANAYİ VE TİCARET ANONİM ŞİRKETİ" tərəfindən Apellyasiya şurasına təqdim edilməmişdir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin 1-ci hissəsinin "Əmtəə nişanının ... istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində istifadə olunmadıqda müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası qeydiyyata xitam verə bilər" əsaslanaraq Apellyasiya şurası hesab edir ki, "altech" adlı əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə qeydiyyatına xitam verilə bilər.

Şərh edilənlərə əsasən və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı, 28-ci və 30-cu maddələrini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1. **"altech"** adlı əmtəə nişanının 05-ci sinifin əmtəələri üzrə 848445 saylı beynəlxalq qeydiyyatına qarşı "Alltech, Inc." kompaniyasının nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev tərəfindən verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və qismən təmin olunsun.
2. **"altech"** adlı əmtəə nişanının 05-ci sinifin əmtəələri ilə bağlı 848445 saylı beynəlxalq qeydiyyatına Azərbaycan Respublikası üzrə xitam verilsin.
3. Bu qərardan Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev